

# 2 əsrlik separatizmə 23 saata son qoyuldu

**2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri Azərbaycanın öz ərazi bütövlüyü uğrunda həyata keçirdiyi prosesin əsas tərkib hissəsi kimi respublikamızın mühüm hərbi-siyasi uğuru oldu. Bununla da möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsinin ardınca növbəti tarixi zəfərimizin müəllifinə çevrildi.**

**Vətən müharibəsinin başa çatmasından sonra rəsmi Bakı Rusiya sülhməramlılarının müvəqqəti nəzarətinə keçən Qarabağ iqtisadi rayonu üzərində dövlətimizin milli suverenliyinin bərpa edilməsi, həmin ərazilərdəki ermənilərin reinteqrasiyası üçün hərtərəfli siyasi-diplomatik fəaliyyət həyata keçirdi.**



Lakin dövlətimizin bütün humanist təklif və təşəbbüsləri danışıqların həyata keçirildiyi Ermənistan tərəfindən qeyri-adekvat qarşılandı və İrəvan bu məsələdən sadəcə sülh prosesini sabotaj etmək üçün yararlandı. Görüş üçün Bakıya dəvət olunan Qarabağdakı ermənilər isə bundan nümayişkaranə şəkildə imtina etdilər. Beləlikə, Azərbaycan dövlətinin yaratdığı şansı nə Ermənistan, nə də Qarabağdakı ermənilər dəyərləndirə bildilər.

Digər narahatlıq doğuran məqam isə ondan ibarət idi ki, Ermənistan 10 noyabr üçtərəfli Bəyanatının imzalanmasından sonra üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməyərək, Qarabağdakı silahlı qüvvələrinin qalıqlarını çıxarmaqdan boyun qaçırırdı. Və nəinki çıxarmadı, əksinə, 2023-cü ilin aprel ayında Laçın rayonu ərazisində şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılmasına qədər Qarabağdakı erməni separatçılarını silah-sursatla təmin etdi. Vətən müharibəsinin başa çatmasından sonra Ermənistandan gətirilən minalar Azərbaycan ərazilərində basdırılmış, hərbçilərimizə və mülki vətəndaşlarımıza qarşı terror həyata keçirilmişdi. Üstəlik, erməni separatçılar Qarabağın təbii sərvətlərini talan edərək Ermənistana daşıyır, ərazinin ekosisteminə zərbə vururdular.

Buna qədər Azərbaycan Ordusunun bölmələrinin həyata keçirdiyi Fərrux və Qisas əməliyyatları, 2022-ci ilin sentyabrında Ermənistanın hərbi təxribatının qarşısının qətiyyətlə alınması və 2023-cü ilin aprelində Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ermənilər üçün əslində xəbərdarlıq idi. Bütün bunlar onu göstərirdi ki, Azərbaycan Ermənistanın üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, separatçılara silah-sursat göndərilməsi, ərazilərimizin minalanması, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərinə maneçilik yaradılması, separatçılar tərəfindən Qarabağ səmasından uçan təyyarələrə problemlərin yaradılması ilə razılaşmayacaq. 2023-cü il iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissəsində hərbçilər qarşısında çıxış edən Prezident İlham Əliyev bir daha qarşı tərəfə xəbərdarlığını edərək demişdi: "Biz hələlik özümüzü təmkinlə aparırıq. Son iki il yarım ərzində biz bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə öz gücümüzü göstərmişik, birincisi, onların hərbi təxribatlarına cavab olaraq. İkincisi, onlara bir siqnal göndərmişik ki, özlərini yaxşı aparmasalar, öz imzalarına hörmət etməsələr, nəticə onlar üçün acınacaqlı olacaq".

Azərbaycan dövlətinin yaratdığı imkanları dəyərləndirə bilməyən ermənilər bu xəbərdarlıqlardan da nəticə çıxarmadılar. Vətən müharibəsində başlarına dəyən "dəmir yumruğ"un zərbəsi onlar üçün dərs olmalı idi. Amma revanşist niyyətlərini reallaşdırmaq üçün Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazilərdəki separatçılar qanunsuz yaratdıqları döyüş mövqelərini möhkəmləndirir, onların şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsini həyata keçirir, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyəti aparır, minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanmasını həyata keçirirdilər. Təbii ki, bütün bunlar separatçılara qarşı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edirdi.

2023-cü il sentyabrın 19-da Qarabağda genişmiqyaslı hərbi təxribatların və terror hücumlarının törədilməsi, nəticədə mülki vətəndaşlarımızın və hərbi qulluqçularımızın şəhid olması erməni separatçılarına qarşı təxirəsalınmaz təsirli tədbirlərin görülməsini qaçılmaz etdi. Beləliklə, 2023-cü il sentyabrın 19-da başlanan və bir sutkadan da az davam edərək Qarabağdakı separatçı dəstələrin darmadağın edilməsi, onların təslim olması ilə nəticələnən lokal xarakterli antiterror tədbirləri Azərbaycan Ordusunun düşmənə vurduğu növbəti "dəmir yumruq" oldu. Bu əməliyyat bir daha Azərbaycan Ordusunun gücünü, ən çətin relyefi olan coğrafi şəraitdə belə uğurlu əməliyyatlar keçirməyə qadir olduğunu, hərbçilərimizin vətənpərvərliyini göstərdi.

Antiterror tədbirlərinin nəticələrini müxtəlif prizmalardan qiymətləndirmək mümkündür. Birincisi, Azərbaycan dövləti bununla özünün ərazi bütövlüyünün təmin edilməsi uğrunda tarixi bir qələbəyə nail oldu, qədim yurd yerimiz olan Qarabağda Azərbaycan dövlətinin konstitusion hüquqları və milli suverenliyi təmin edildi. İkincisi, antiterror tədbirlərinin nəticəsində Azərbaycan ərazilərində 19-cu əsrin əvvəllərindən başlanmış erməni separatizminə son qoyuldu. Erməni separatizmi dünya erməniliyinin və antiazərbaycançı siyasi mərkəzlərin respublikamızın əraziləri ilə bağlı riyakar planlarının həyata keçirilməsində istifadə olunan vasitə idi. Bu baxımdan Azərbaycan antiterror tədbirlərində erməni separatizmini körükləyən həmin siyasi mərkəzlərə, dünya erməniliyinin başında dayanan Fransa kimi dövlətlərə qalib gəldi. Ermənilərin məskunlaşdıqları başqa dövlətlərin ərazilərində potensial separatizm mənbəyi olduqları məlumdur. Gürcüstanın Cavaxetiya bölgəsindəki əməllərini buna misal göstərə bilərik.

Bir il əvvəl isə Azərbaycan dövləti 2 əsrlik separatizmə 23 saata son qoydu, ərazilərində parazitlərin kökünü birdəfəlik kəsdi.

Qarabağda milli suverenliyimizin təmin olunması və erməni separatizminə son qoyulması bir daha Prezident İlham Əliyevin "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm" sözlərinin təntənəsi və təsdiqi oldu. Bu tarixi hadisə bir daha göstərdi ki, güclü Azərbaycan dövləti özünün bütün milli maraqlarını qətiyyətlə təmin edir.

*Nəsib MƏHƏMMƏLİYEV,*
*Milli Məclisin deputatı*